# Volnovaxada döyüşən qəhrəman azərbaycanlı...





## Atasının ilk, anasının isə sonuncu məktubunu ala bilmədi



*Nurlan QƏLƏNDƏRLİ*

Dünyanın gözü-nəzəri, diqqəti Rusiya-Ukrayna müharibəsindədir. Sadə insanlardan tutmuş ekspertlərə, siyasətçilərə qədər - hər kəs həyəcanla hadisə və prosesləri izləyir, öz fikir və hisslərini ifadə edir. Saytları müharibə xəbərləri "bəzəyir", sosial şəbəkələrdə bu mövzuda müzakirələr, paylaşımlar səngimir. Gün ərzində müxtəlif mənbələrdən onlarla xəbər alırıq. Hər biri, demək olar ki, diqqətimizi cəlb edir - fərqli ovqat yaradır. Amma bəziləri var ki...

"Ukrayna ordusu Volnovaxa şəhərini geri alıb". İnformasiya resurslarında rast gəldiyimiz bu xəbər ilk baxışdan hərbi-strateji məlumat kimi sadəcə bir tərəfin nailiyyəti, digərinin isə uğursuzluğu kimi görünür. Amma "Volnovaxa geri alındı" xəbəri, əslində, bizi çox da uzaq olmayan yeni tariximizə qaytarır - nostalji hissləri oyadır. Söhbət ictimai-siyasi xadim, yazıçı-publisist, ixtisasca həkim Nəriman Nərimanov, oğlu Nəcəf Nərimanovla bağlı mənəvi əhəmiyyəti kifayət qədər böyük olan məsələdən gedir. O Nəcəf Nərimanov ki, Böyük Vətən müharibəsi zamanı - 1943-cü ilin sentyabrın 8-də Ukraynanın Donetsk vilayətinin Volnovaxa şəhərində qəhrəmancasına həlak olub. Bu gün məzarı oradadadır, Volnovaxada adına küçə var...

23 yanvar 1925-ci il - Nərimanov Nərimanovun oğluna məktub yazdığı zamanı əks etdirən tarixdir. Nəcəf Nərimanov hələ 6 yaşında idi. Məktubu yazdıqdan iki ay sonra Nəriman Nərimanov iş yerində vəfat edir. Sonradan "siyasi vəsiyyət" adlandırılan məktubu oxumaq - atasının tövsiyə, çağırış və arzuları ilə tanış olmaq Nəcəfə nəsib - qismət olmur.

Nəcəf 1941-1943-cü illər ərzində faşizmə qarşı müharibədə qvardiya baş leytenantı, tank alayının komandiri kimi Vətən uğrunda şərəflə və ləyaqətlə döyüşür, Volnovaxada qəhrəmancasına həlak olur. O, birinci dərəcəli Vətən Müharibəsi ordeni və "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunur. Məzarı, qeyd etdiyimiz kimi, bu gün vaxtilə eyni ittifaqda 69 il çiyin-çiyinə addımlamış Rusiya ilə Ukrayna arasında müharibənin qızğın döyüş meydanlarından olan Donetsk vilayətinin Volnovaxa şəhərindədir.

Görkəmli tədqiqatçı-alim Vəli Məmmədov 1957-ci ildə Volnovaxa şəhərində olub, Nəcəfin qəbrini ziyarət edib. O, Nəriman Nərimanovun məktubunu arxivdən əldə edərək illər sonra oğluna "çatdıra bilib" - ata vəsiyyətini, nakam məktubu qəbri üstündə oxuyub. Beləliklə, Nəcəf Nərimanov ata vəsiyyəti ilə ölümündən sonra "tanış ola bilib".

"...Biz sarsılmadıq və Stalinqrad böyük bir alman qrupunun məzarı oldu. Budur, mən indi iki medal gözləyirəm...". Atasının məktubu ilə tanış ola və onu cavablandıra bilməyən Nəcəf bu sözləri anası Gülsüm xanıma məktubunda yazmışdı. O, Böyük Vətən müharibəsində xalqının, dövlətinin və ittifaqın alman faşizminə qarşı şərəfini qoruyarkən, əslində, Nəriman Nərimanovun məktubunda əksini tapan tövsiyələrə necə əməl etdiyini, atasının arzularını necə gerçəkləşdirdiyini göstərmişdi. Oxumasa da, bilməsə də...

Nəriman Nərimanov məktubunda qeyd edirdi: "Əziz oğlum Nəcəf! Əgər hələ yaşamaq qismətim varsa, mən səni elə hazırlamağa çalışacam ki, sən bəşəriyyət üçün daha çox iş görəsən. Lakin mən əbədi məzara tez köçməli olsam, təvəqqe edirəm, başqaları üçün daim əzab çəkən atan qədər kiçik bir iş görəsən". Yaşaya və məktubu çatdıra bilməsə də, Nəriman Nərimanovun diləyi gerçək olmuşdu: övladı da özü kimi böyük işlərə imza atmış, başqaları və hamı üçün Vətəni qorumaq şərəfinə nail olmuşdu.

"Mən insanın insan tərəfindən istismarının əleyhinəyəm. Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə köləlikdən azad olması yollarını axtarırdım". Böyük Vətən müharibəsində alman faşizmi üzərində Qələbəyə - bəşəriyyətin bu bəladan qurtulmasına töhfə verən Vətən övladlarından biri də bu sözlərin müəllifi olan Nəriman Nərimanovun oğlu oldu - Vətən oğlu! Hətta kimə görə "xalqlar dostluğu", kimə görə isə "azadlıq düşməni - köləlik sistemi" olan bir imperiya dağıldı, bolşevizm iflasa uğradı. Nərimanovun hansısa arzuları gerçək oldu, amma onun da, övladının da ruhunu incidən məqamlar var. Elə bu gün Nəcəfin məzarının da yer aldığı, adına küçə olduğu Volnovaxada yaşananların timsalında olduğu kimi...

Sonuncu məktub da ünvanına çatmadı - Nəcəf atasının ilk, anasının isə sonuncu məktubunu ala bilmədi. Poçtalyon Nəcəf Nərimanovun ölümü ilə bağlı teleqramı gətirdikdə anası oğluna cavab məktubu yazırdı. Yarımçıq qalmış məktuba davam etmək üçün geri döndükdə isə yalnız nöqtələr qoymuşdu... Nə zamansa bəşəriyyət insan ölümünə, faciələrə səbəb olan müharibələrə də son nöqtəni qoyacaq, şübhəsiz!

Yeni Azərbaycan.- 2022.- 1 mart.- S.4.